# Uşağın qəlbi



■ **Herman Hesse**

*(Əvvəli ötən sayda)*

Kabinetə doğru gedən pilləkənlərlə atamın yanına qalxdım. Bu xüsusi divar kağızı iyi gələn və yüngül taxta pillələrdən düzülmüş, taxtaları quru olduğundan səs edən pilləkən sanki dəhliz deyildi, bir sərhəd idi, bir tale qapısı idi. Bu pillələrlə həyatımın ən vacib yollarını keçmişəm. Mən dəfələrlə ordan qalxaraq qorxu və vicdan əzabını, inadkarlıq və acıq hissi duymuşam Qayıdan başı isə qəlbimdə azadlıq və qətiyyət hissi olub. Evin alt hissəsində anamızın və biz (uşaqlar) qalırdıq. Burada rahat nəfəs almaq olurdu. Yuxarıda - atamın otağında isə idrak və hakimiyyət hökm sürürdü. Ora həm məhkəmə, həm məbəd və həm də "ata səltənəti" idi.

Həmişəki kimi cəsarətlə köhnə dəbli dəstəyi aşağı əyərək qapını araladım. Atamın kabineti məni tanış bir qoxu ilə qarşıladı. Bu qoxunu yarı açılmış pəncərədən dolan mavi, təmiz havayla kitabların nəfəsi və mürəkkəb iyi yaradırdı. Otaqda bəyaz və təmiz pərdələr, yazı masasının üstündə bir alma vardı. Odekolonun yüngül ətri duyulurdu.

Mən bir az pərişan, bir az da rahat vəziyyətdə otağa daxil oldum. Səs salmayım deyə barmaqlarımın ucunda keçdim. Adətən atam yatanda və ya başı ağrıyanda burdan belə keçirdik. Bu səssiz addımların mahiyyətini dərk edən kimi mənim ürəyim tez-tez döyünməyə başladı. Mən yenidən qarnım və boğazımda sancı hiss elədim. Xəlvətcə və qorxa-qorxa mən addım-addım gedirdim. Və indi özümü çağırılmamış, özbaşına gəlmiş bir qonaq kimi hiss edirdim. Dəfələrlə mən atam olmayanda gizlicə otağına girmişəm. Dəfələrlə onun sirli səltənətini gözdən keçirir və təftiş etmiş, hələ iki dəfə də oğurluq etmişəm.

Bu haqda xatirələr məni ağuşuna aldı və başa düşdüm ki, mütləq nəsə baş verəcək. Mən xatalı və xoşagəlməz bir şey edəcəyəm. Qaçmaq barəsində heç düşünmürdüm də! Daha doğrusu, mən həyacanla qaçmaq, pilləkənlərlə üzü aşağı, öz balaca otağıma və ya bağçaya qaçmaq haqqında düşünürdüm! Lakin bunu etməyəcəyimi, bacarmayacağımı bilirdim. Mən bütün qəlbimlə istəyirdim ki, qonşu otaqdakı atam oyansın və bura gəlib məni şeytan kimi cəlb edən bu dəhşətli ovsundan xilas etsin. Kaş ki o gələydi! Qoy məni danlasın, amma kaş ki gəlsin! Nə qədər ki gec deyil!

Mən burda olduğumu hiss elətdirmək üçün yüngülcə öskürdüm. Cavab almadığıma görə yavaşca çağırdım: "Ata!" Çox saitlik idi. Divarlar da, kitab rəfləri də susur, pəncərənin bir layı küləkdən yellənirdi. Heç kim mənə yardım etmədi. Və mənim öz daxilimdə şeytanın istədiyini edəcək qədər azadlıq yox idi: günahkar olduğumu düşünəndə qarnım sancdı və barmaqlarımın ucu buza döndü, ürəyimsə sürətlə çırpınmağa başladı. Mən nə edəcəyimi hələ dəqiq bilmirdim. Sadəcə baş verənlərin yaxşı iş omadığını və sonrasında da xeyir görünmədiyini bilirdim.

Yazı masasına yaxınlaşaraq bir kitabı əlimə alıb, başa düşməsəm də ingilis dilindəki başlığı oxudum. Bu dili heç sevmirdim. Atam biz başa düşməyək deyə, ya da aralarında mübahisələr olanda anamla həmişə bu dildə danışırdı. Fincanda cürbəcür xırdavat - diş təmizləyən çöp, polad qələm ucluqları, sancaqlar varıydı. Mən iki ədəd qələm ucluğu götürüb cibimə qoydum. Allah bilir nəyimə gərək idi onlar, axı mənim onlardan nə qədər desən varım idi. Bunu məni boğan bir qüvvənin təsiri altında etdim. Bu qüvvə məni nəsə bir pis şey etməyə, özümə ziyan vurmağa, günah işləməyə sövq edirdi. Mən atamın kağızlarına göz gəzdirdim və yarımçıq qalmış bir məktubda bu sözləri oxudum: "Biz də, uşaqlar da sağ-salamatıq" və onun yazdığı latın hərfləri sanki gözə dönüb mənə baxırdı.

Daha sonra mən sakitcə yataq otağına keçdim. Orada onun dəmir çarpayısı, altında qəhvəyi çəkələk, tumbanın üstündə isə əl yaylığı varıydı. Mən bu işıqlı, sərin otaqda ata havasını nəfəsimə çəkirdim və atamın obrazı gözlərimin önündə idi. Ağırlıq çökmüş ürəyimdə onun ətri və daxilimdə qopan qiyam sanki boğuşurdu. Arada, başı ağrıyan günlərdə onun dəmir çarpayısında alnında nəm dəsmalla uzandığı günlərin xatirələrini özümə də bəlli olmayan bədxahlıqla yadıma salıb, hətta ona nifrət də elədim. Görünür, mən anlayırdım ki, bu məzəmmətli insanın da həyatı ağır keçib. Hamı tərəfindən ehtiram olunan atam da, qorxu və şübhənin nə olduğunu bilirdi. Mənim hisslərim soyumağa başladı. Bu hal yavaş-yavaş mərhəmət və onun halına acımaq duyğusu ilə əvəz olunurdu. Kamodu açdım. Orada onun qatlanmış alt paltarları və sevimli odekolonu varıydı. Mən onu qoxulamaq istədim, lakin çox möhkəm bağlı olduğundan yerinə qoydum. Yanında bir qutu biyanlı konfet tapdım və bir neçəsini ağzıma atdım. Mən bir az pərişan oldum və elə bil ki, ayıldım, bundan başqa heç nə tapmayıb oğurluq etmədiyimə görə xeyli şad oldum.

Sakitləşib və özümü ələ alıb yaramazlığım ucbatından götürdüyüm hər iki qələm ucluğunu yerinə qoymaq məqsədi ilə dolabın daha bir gözünü də açdım. Bəlkə də geri çevrilib, peşman olub, günahımı yuyub rahatlaşmaq da olardı. Bəlkə də Allahın üzərimdəki nəzəri hər bir həvəsdən, tamahdan daha üstün idi.

Birdən mən dolabın azca açıq qalmış yerinə baxdım. Kaş ki orada corab, köynək ya da köhnə qəzetlər olaydı! Yenə də tamah hissi məni bürüdü və təzəcə tərk etmiş qorxu hissi yenidən canıma çökdü, əllərim əsdi, ürəyim tez-tez döyünməyə başladı. Hindistanın və ya hansısa başqa ekzotik ölkənin istehsalı olan qabda bəyaz şəkər kirşanı səpilmiş bir bağlama əncir gördüm. Qabı götürdüm. Xeyli ağır idi. Sonra iki-üç ədəd əncir yedim. Qalanlarını isə cibimə atdım. İndi daha bütün bu qorxu və fırıldaq əbəs yerə olmadı. Burdan qurtuluş və təsəlli almaq olmadısa da, əliboş getmək də fikrində deyildim. Bağlamadan daha üç-dörd dənə də əncir götürdüm. Buna baxmayaraq, bağlama heç də yüngülləşmədi. Meyvələr yarıbayarı azalanda ciblərim dolmuşdu. Mən ip boyunca əncirləri aralayıb onların düzülüşünü tənzimlədim ki, əskik olduğu çox da nəzərə çarpmasın. Daha sonra qəflətən həyəcanlanaraq dolabı bağlayıb qaçdım. Hər iki otaqdan cəld çıxdım, pilləkənlərlə üzü aşağı yüyürdüm. Az qala boğulurdum.

Birazdan nahara çağırdılar. İçimdə qəribə bir nifrət hissiylə meyvələri öz kitab rəfimə yığdım. Kitabların arxasında gizlədərək nahar etməyə qalxdım. Otağın qapısına çatanda əllərimin şirəli olduğunu hiss etdim. Mətbəxə qayıdıb yudum. Hamı masa ətrafında əyləşərək gözləyirdi. Tez salamlaşdım, atam dua oxudu və mən şorbanı yeməyə başladım. Heç iştaham yoxuydu, güclə udqunurdum. Yanımda bacılarım, üzbəüz valideynlərim əyləşmişdi. Hamı şən, pis fikirlərdən uzaq idi. Bircə aralarında ürəyini üzən bədbəxt günahkar mən idim. Ağzımda hələ də əncirin dadı qalmışdı. Hər baxışdan səksənirdim. Fikrimsə yuxarıda qalmışdı: görəsən yataq otağının qapısını bağlamışam? Bəs dolabın necə?

Fəlakət baş verdi. Mən, hətta əlimin kəsilməsinə belə razıydım. Təki götürdüyüm əncirlər yenidən dolaba qoyulaydı. Kaş ki mən onları heç götürməmiş olaydım. Düşündüm ki, ya onları ataram, ya da məktəbdə uşaqlara paylayaram. Bircə onlardan canım qurtulsun, bircə onları bir daha görməyim.

- Sən bu gün gözümə yaxşı dəymirsən, - atam masanın o üzündən dilləndi. Mən onun baxışlarını üzərimdə hiss edərək boşqaba baxırdım. İndicə başa düşəcək. Axı o hər zaman hər şeyi duyurdu. Niyə o məni belə incidir? Hətta məni aparıb hardasa öldürsəydi belə bundan daha yaxşıydı.

- Xəstələnmisən? - yenidən səsini eşitdim. Yalandan başımın ağrıdığını dedim.

- Ye, sonra da bir azca uzan dincəl, - o dedi, - bu gün daha neçə dərsin var?

- Gimnastika.

- Gimnastikanın sənə ziyanı yoxdu. Amma yemək istəməsən də, bir az məbcur da olsa ye. Bir azdan keçəcək ağrın.

Mən ona çəpəki baxdım. Anamın mənə baxdığını bilirdim. Lakin o heç dillənmədi. Şorbanı axıra kimi yedim, ət və tərəvəzlə isə "müharibə apardım". İki dəfə su süzdüm. Başqa heç nə baş vermədi. Məni rahat buraxdılar. Sonra atamın etdiyi şükür duası - "Allahım sənə şükürlər olsun, sənin mərhəmətin sonsuzdur", məni yara yanğısı kimi bir hisslə bu işıqlı, müqəddəs insanlardan ayırdı. Hətta dua etmək üçün açdığım əllər belə riyakarlıq edirdi.

Mən ayağa qalxanda anam başıma sığal çəkib, hərarətimi yoxlamaq üçün əlini alnıma qoydu. Bu mənə çox ağır gəldi.

Öz darısqal otağımda kitab rəfinin önündə ayaq saxladım. Səhərki duyğularım məni aldatmadı, bütün əlamətlər öz təsdiqini tapdı. Gün çox uğursuz keçdi, hələ bundan pis günüm olmamışdı. Daha betərinə heç kim dözə bilməzdi. Bunun sonu intihar - ya zəhər içmək, ya da özünü asmaqla nəticələnməlidi. İndiki halda ölmək yaşamaqdan daha yaxşı olardı. Axı hər şey çox yanlış və biabırçı bir şəkil almışdı.

Birdən gözümə bizim daxılımız dəydi. Kitabların alt rəfində idi. Onu siqar qutusundan hazırlamışdım. Qəpik atmaq üçün yuxarısını mismarlayıb, qapağını bıçaq ilə balaca deşmişdim. Dəliyi səliqəsiz açdığımdan qıraqları tilişkəli idi. Hətta bunu da yaxşı bacarmamışdım. Mənim elə yoldaşlarım vardı ki, bu cür işləri ürəklə, tələsmədən, qüsursu edirdilər ki, heç xarratların əl işlərindən dala qalmırdı. Mənim gördüyüm iş isə həmişə kobud, səliqəsiz və alayarımçıq olurdu. Hər işdə - taxtadan düzəltdiklərim də, çəkdiyim rəsmlərdə də, xəttim də, kəpənək kolleksiyam da bu cür idi. Mən heç nə bacaramırdım. Və mən bunlar azmış kimi, oğurluq da etdim. Qələmlər də cibimdə qalmışdı. Nəyə görə? Onlar mənim nəyimə gərək idi axı? Niyə götürdüm onları? İstəmədiyim şeyləri etmək nəyə lazımdı?

Qutuda Oskar Veberin atdığı yeganə on pfenniq cingildəyirdi. O vaxtdan pul artırmamışdıq. Bu daxıl məsələsi də mənim fikrim idi. Heç nə alınmırdı, yoluna düşmürdü. Əlimi atdığım hər bir iş əvvəlindən düz gətirmirdi. Lənətə gəlmiş bu daxıl! Daha onu da görmək istəmirəm!

Bu cür günlərdə, naharla məktəb saatı arasındakı vaxt uzun və üzücü olurdu. Kefimiz yerində olanda isə həminki vaxt çox gözəl və maraqlı keçirdi. Mən həmin zaman ərzində öz otağımda ya hindular haqda kitab oxuyurdum, ya da yeməkdən dərhal sonra məktəb meydançasına qayıdırdım. Orada mən zəng vurulana kimi sinif yoldaşlarımla oynayır, oxuyur, qışqırır, qaçır, tullanırdım. Belə günlərdə isə... Kimlə oynayasan? İçindəki şeytanları necə sakitləşdirəsən? Artıq mən hiss edirdim ki, iş o yerə gəlib çıxacaq ki, taleyim ani bir partlayışla parampərça olacaq. Axı cəmi bir damcı, bircə damcı qorxu, əzab bəs edəcək ki, kasa dolsun və bu müsibət bitsin. Nə vaxtsa belə günlərin birində dəhşətli, qətiyyətli, həyatımı dəyişəcək, əzablara və qorxulara son qoya biləcək bir şey edəcəyəm. Bunun nəylə nəticələnəcəyi hələ məlum olmasa da, fantastik və zəhlə tökən nümunələr artıq mənim başımı gicəlləndirirdi. Mən dünyadan qisas alacağam və eyni zamanda da, özümü məhv edəcəyəm. Hərdən mənə elə gəlirdi ki, evimizi yandırıram. Nəhəng alovun qanadları gecəni öz ağuşuna alır. Od evləri, küçələri bürüyür, bütün şəhər qaralmış səmanın altında boğulurdu. Təxəyyülümdəki digər cinayətlərdə mən atamdan intiqam alırdım, vəhşicəsinə, amansızcasına onu öldürürdüm! Və mən bir dəfə şəhərin mərkəzi küçəsindən aparılan cinayətkar olacaqdım. O, həbs olunmuş oğru idi. Biri arxasında, biri önündə olmaqla, iki jandarm qolu qandallı onu məhkəməyə aparırdı. Bu hər şeylə maraqlanan izdihamın, minlərlə lənətlərin, istehzaların, acıqlı qışqırıqların arasından şəhər boyu qovulan adam, heç də polislərin küçədə dilənçilik etdiyinə görə qandalladıqları usta köməkçilərinə bənzəmirdi. Bəli, o, utancaq bir usta köməkçisi deyildi, sadəlövhlüyü, qorxaqlığı yox idi, ağlamırdı, o, mənasız gülüş arxasında gizlənmirdi. Bu cür gülüşləri görmək mənə də qismət olmuşdu. O, əsl cinayətkar idi. Məğrur saxladığı başında yüngülvari əzilmiş şlyapa vardı. Rəngi solğun olsa da, istehzayla gülümsəyirdi. Ona nifrətlə baxan şəhər sakinləriylə birgə mən də qışqırırdım: "Axır ki ələ keçdin! Onu asmaq lazımdır!" Sonra isə mən onun qandallı əllərini önə tutaraq məğrur və dik addımladığını gördüm. O elə rəşadətlə gedirdi ki, elə bil başında ecazkar tac var. Gülümsəyirdi. Və mən susdum! Mən də o cinayətkarsayağı gülümsəyirdim, məhkəməyə aparsalar başımı onun kimi dik tutardım, ətrafımda çoxlu adamlar toplaşıb məni ələ salsaydılar da, susardım və insanlara nifrət edərdim.

Edam olunub öləndən sonra əbədi hakimin önündə belə baş əyməyəcəyəm, təslim olmayacağam. O, səma qoşununun əhatəsində olsa belə, öz müqəddəsliyi və nəhəngliyi ilə göz qamaşdırsa belə, qoy məni lənətləsin, qoy mənim qaynar qatrana atılmağıma əmr versin. Mən onsuz da üzr istəməyəcəyəm, alçalmayacağam, əfv diləməyəcəyəm və heç nəyə görə peşman olmayacağam! Əgər məndən soruşsa ki, "sən onu, bunu etmisən?" - mən cavab verəcəyəm: "Hə etmişəm! Əlimin içindən gəlib, lap yaxşı etmişəm. Əgər şərait yaranarsa yenə də edəcəyəm! Mən adam öldürürdüm, evləri yandırırdım ki, zövq alım, səni lağa qoyum və qəzəbləndirim. Bəli, səndən zəhləm gedir! Ayaqlarının altına tüpürürəm, Allah! Sən mənə əzab vermisən, sən heç kimin əməl edə bilməyəcəyi qanunlar qoymusan, sən böyükləri həyatımızı zəhərləməyə təhrik etmisən!".

*Davamı səhifə 15-də*

*Əvvəli səhifə 14-də*

# Uşağın qəlbi

Özümdə bu cür qətiyyəti təsəvvür etmək xoşbəxtliyi mənə nəsib olanda, üzümdə məyusluqla qəribə bir təbəssüm oyandı. Amma dərhal yenə də, şübhələr oyanır. Görəsən mən zəif olmaram ki? Məni qorxutmaqlarına imkan vermərəm ki? Axır nöqtədə geriyə çəkilmərəm ki? Ya da tutalım ki, mən hər şeyi istədiyim kimi etsəm, Allah özüyçün hansısa bir çıxış yolu, üstünlük və ya bir hiylə tapmaz ki? Axı valideynlər həmişə axırda əllərindəki əsas dəlili işə salıb, xeyirxahlıq maskası altında bizi alçalmağa, hesablaşmağa məcbur edirlər. Əlbəttə ki, bu elə belə də nəticələnəcəkdi.

Təxəyyülüm müxtəlif məsələlərə yönəlmişdi. Gah məni qəhrəman edirdi, gah da Allahı! Gah məni yenilməz günahkar yüksəkliyinə qaldırırdı, gah da aciz bir uşaq edirdi.

Mən pəncərələrin önündə dayanaraq, qonşu evin arxa bağçasına tərəf baxırdım. Divara şalbanlar söykənmiş, balaca bostanda isə bir neçə lək göyərirdi. Qəflətən mən günortanın sakitliyində saatın zəngini eşitdim. İki möhkəm və aydın eşidilən zərb səsi mənim xəyallarımdan ayırdı. Saat iki idi. Və mən həyacan içində öz dəhşətli təsəvvürlərimdən, qaçılmaz həqiqətlərə qayıtdım. İndi bu anda bizdə gimnastika dərsi idi. Əgər gimnastika zalına lap sehrli qanadlarla uçsaydım belə mütləq gecikəcəkdim. Yenə də uğursuzluq! Birisi gün məni çağırıb danlayacaq və cəzalandıracaqdılar. Yaxşısı budur məktəbə heç getməyim. Çünki artıq heç nəyi qaydasına sala bilmirəm. Kaş ki yaxşı, incə və həqiqətə uyğun bir bəhanəm olaydı. Heyf ki indi ağlıma heç nə gəlmir. Yalan danışmağı müəllimlərimiz bizə necə mükəmməl öyrətsələr də, mən indi yalan danışa biləcək, nəsə fikirləşib tapacaq halda deyildim. Dərsi buraxmaq ən yaxşı çıxış yoludur. Böyük bədbəxtliyə kiçik bədbəxtlik də əlavə olunsa heç nə olmazdı!

* * *

Saat zənginin zərbi məni ayıltdı, xəyallarımı iflic etdi. Birdən mən haldan düşdüm. Otağım, rəsmlər, çarpayı, kitablar - hamısı sərt reallıqla mənə baxırdı sanki. Hər şey yaşamağa məcbur olduğum, təhlükəli və ədalətli bir dünyadan çağırış idi. Əlbəttə! Bəyəm mən gimnaskita dərsini buraxmadım? Bəyəm oğurluq etmədim? Bəyəm heç yeməyə belə vaxt tapmadığım lənətə gəlmiş əncirlər mənim rəfimdə deyildi? İndi o cinayətkar, Allah və onun dəhşətli məhkəməsini düşünmək nəyimə gərək idi!? Ona çox zaman var hələ. İndi, bu dəqiqə bütün bunlar mənə yalnız səfehlik kimi görünürdü. Mən oğurluq etmişəm və bunun üstü istənilən an açıla bilərdi. Bəlkə də artıq açılıb, bəlkə də atam həmin dolaba baxıb, etdiyim axmaqlıqdan artıq xəbər tutub. Əsəbi və təhqir olunmuş halda mənlə necə haqq-hesab çəkəcəyini, məni necə cəzalandıracağını düşünür. Bəli, bəlkə də o, indi bura - yanıma gəlir və əgər mən aradan çıxmasam bir dəqiqədən sonra onun ciddi və zabitəli simasını görəcəyəm. Axı o, dərhal oğrunun mən olduğumu biləcək. Bu evdə məndən başqa cinayətkar yox idi. Bacılarım heç vaxt belə şeylər etməzdi. Bəs əncirləri dolabda gizlətmək atamın nəyinə gərək idi?

Artıq mən otağımı tərk edib evin arxa qapısından həyətə tərəf çıxdım. Həyət və çəmənlik günəşin al şəfəqləri ilə örtülmüş, yolun üstündə sarı kəpənəklər uçuşurdu. Hər şey indi səhərkindən daha pis, daha iyrənc görünürdü. Bu hiss artıq mənə tanış olsa da, heç vaxt bunu belə əzabla qarşılamamışdım.

Şəhər və zəng qülləsi, çəmən və yol, otların arasındakı çiçək və kəpənəklər - hamısı təbii, gözəl və şən idi, sanki onlar təmiz vicdanla nəfəs alırdı. İnsana fərəh bəxş edən bütün bu şeylər indi mənə tamamilə yad görünürdü. Bu cür doğma yerlərdə günah hissiylə addımlamaq artıq mənə tanış idi. Ən nadir bir kəpənək belə çəmənlikdə uçub yanıma gəlsəydi, bu heç nəyi dəyişə bilməzdi, məni sevindirməz, həyacanlandırmaz, təsəlli verməzdi. Əgər albalı ağacının ən gözəl budağını mənə uzatsan belə, bunun da heç bir dəyəri olmazdı. Xoşbəxtlik bunda deyildi. İndi yalnız bir əlac vardı - qaçmaq, atamdan qaçmaq, cəzadan qaçmaq, zümdən qaçmaq, vicdanımdan qaçmaq, geriyə baxmadan qaçmaq. Amma nə qədər qaçırsan qaç, olacaq onsuz daolacaqdı.

Mən nəfəs dərmədən dağdakı meşəliyə, palıdlıqdan üzü aşağı - knyaz dəyirmanına, oradan da körpüdən keçib yenidən dağdakı meşəliyə qaçırdım. Bizim burda hindu düşərgəmiz varıydı. Ötən il atam səfərdə olanda, anam pasxa bayramını burada bizimlə birgə keçirdi. Bizimçün yumurtaları gizlədirdi. Bir dəfə tətildə əmim oğlanları ilə burda qala tikdim, onun yarı hissəsi hələ də dağılmamışdı. Hər yerdə ötən günlərin xatirəsi vardı, hər yerdə



güzgülər vardı. Güzgülərdən mənə baxan o həminki adam deyildim! Doğrudan da bu mən idim? Mən axı şükrlü, ünsiyyətcil, anasıyla xoş rəftar edən, qorxulardan azad, xoşbəxt bir uşaq idim. Necə oldu ki, mən bu cür dəyişildim, tamamilə başqa insan oldum. Bu cür acıqlı, qorxaq və bədbəxt oldum? Hər şey - meşə, çay, çobanyastıqları, qala və qarışqa yuvası adi, həmişəki tək olsa da, gözümə zəhərlənmiş qaralmış kimi dəyirdi. Məgər geriyə - saflığa, günahsızlığa və xoşbəxtliyə daha yol yox idi? Daha heç nə əvvəlki kimi ola bilməzdi? Görəsən mənə yenidən əvvəlki kimi gülmək, bacılarımla oynamaq, pasxa üçün boyanmış yumurtaları axtarmaq nəsib olacaq?

Mən durmadan qaçırdım. Alnım tərləmişdi. Qaçdıqca günahım, atamın qorxunc və böyük kölgəsi də arxamca gəlirdi.

Xiyabanların yanından ötürdüm. Yol kənarında olan təpəciklərdən birində ayaq saxladım, özümü çəmənliyə atdım. Yuxarı dırmandığıma görə möhkəm tənginəfəs olmuşdum. Düşünürdüm ki, bir azdan keçər. Bu yüksəklikdən şəhər və çay görünürdü. Gimnastika zalı da gözümə dəydi. Dərs qurtarmış, uşaqlar qaçışırdılar. Ata evimizin uzunsov damını da görürdüm. Orada atamın yataq otağı, dolabı vardı. O dolabdan mən əncir oğurlamışdım. Mənim otağım da orada idi. Ora qayıdanda məni cəza və tənbeh gözləyirdi. Bəlkə heç qayıtmayım?

Bilirdim ki, qayıdacam. Hər dəfə belə olanda qayıdıram. Həmişə belə olur. Getmək, Afrikaya və ya Berlinə qaçmaq olmur! Əgər sən balacasansa, pulun yoxdursa, heç kim sənə kömək etməyəcək. Kaş ki bütün uşaqlar birləşərək bir-birlərinə kömək edəydilər. Dünyada uşaqlar valideynlərdən çoxdurlar. Lakin heç də bütün uşaqlar oğru və cinayətkar deyil. Bəlkə də mən nəslimizdə belə hadisələr yaşayan yeganə adamam. Amma yox. Bilirdim ki, başıma gələnlər həyatda tez-tez olur. Əmilərimdən biri uşaq vaxtı nəsə oğurlamışdı, pis iş görmüşdü. Mən bunu valideynlərimin söhbətini gizlicə dinləyəndə bilmişdim. Bütün maraqlı hadisələri yalnız bu yolla öyrənmək olurdu. Eh! Bunların heç biri mənə kömək edə bilməz! Hətta həmin əmim indi burada olsaydı belə, mənə dayaq durmazdı! Artıq o da uşaq deyil, böyüyüb, kilsədə keşişdir. O da valideynlərimizin tərəfində olacaq. Onlar hamısı belədir! Bizim - uşaqların önündə özlərini olduqları kimi yox, başqa cür göstərirlər. Rola girib səmimilikdən uzaq olur, yalan danışırlar. Anamsa bəlkə də elə deyil və ya o birilərindən nisbətən az yalan deyir.

Bəs birdən mən evə dönməsəydim? Axı mənim başıma nəsə bir pis iş gələ bilərdi, boynum qırıla, suda boğula və ya qatarın altına düşə bilərdim. Onda hər şey başqa cür olardı. Məni evə çatdırardılar, hamı qorxu içində susardı, ağlayıb mənə yazıqları gələrdi. Və heç kimi yadına o əncirlər düşməzdi. Bu söhbət açılmazdı.

Mən çox gözəl bilirdim ki, intihar da edə bilərəm. İrəlidə həyatım daha da pisləşsə, mən elə bu cür də edəcəyimi düşünürdüm.

Yaxşı olardı ki, zökəmə, öskürəyə yox, nəsə ölümcül bir xəstəliyə - əvvəllər tutulduğum kimi skarlatinaya tutlardım.

Bu vaxt ərzində gimnastika dərsinin də artıq vaxtı keçmiş və deməli, evdə qəhvə içməyə məni gözlədikləri vaxt da bitmişdi. Bəlkə də onlar indi məni otağımda, bağçada, həyətdə, çardaqda axtarırdılar. Lakin əgər atam etdiyim oğurluqdan xəbər tutubsa, məni çox güman ki, axtarmazdılar. Atam işin nə yerdə olduğunu bilirdi.

Uzanıb qalmağa daha səbrim yox idi. Fələk heç məni unutmurdu, sanki qarabaqara izləyirdi. Mən yenə də qaçmağa başladım. Parkda xatirələrlə dolu skamyanın yanından ötdüm. Atam mənə cib bıçağı hədiyyə etmişdi. Biz bir yerdə parkda gəzirdik. Atam həmin bu skamyada əyləşmişdi. Mənsə fındıqlığa keçib özüm üçün çubuq kəsirdim. Və bu xoşbəxt olduğum anda bıçağımı sındırdım. Dəhşət içində geri qayıtdım. Bunu atamdan gizlətmək istəyirdim. Lakin atam məni görən kimi verdiyi hədiyyənin salamat olub olmadığını xəbər aldı. Qanım çox qaraldı. Atamsa gülümsəyərək əlini çiynimə qoydu. "Yazıq, heyf!" O zamanlar mən onu necə də çox sevirdim, fikrimdə ondan dəfələrlə üzr istəmişdim! Atamın həminki siması, səsi, mənə təskinliyi yadıma düşdü... Mən dəfələrlə bu cür atanın qanını qaraltmışam. İndisə üstəlik hələ bir oğurluq edə biləcək qədər əclafam da!

Mən yenidən şəhərə qayıdanda, yuxarı körpü tərəfdə evimizin yaxınlığında olanda artıq qaş qaralırdı. Şüşə qapılı işıqlı dükandan bir oğlan çıxıb qaça-qaça məni səslədi. Bu Oskar Veber idi. Bircə elə o çatmırdı. Amma ondan gimnastika müəllimimizin mənim dərsdə olmadığımın sezmədiyini öyrəndim. Bəs mən harda idim?

- Əşi, heç yerdə! Sadəcə özümü yaxşı hiss etmirdim, deyə düşündüm. Mən bu müddət ərzində tamam susqun idim. Və Veber ayağıma cidar olduğunu anlayaraq qəzəbləndi.

- Məni rahat burax, tək də gedə bilərəm.

- Belə oldu? Mən səndən də yaxşı gedib çıxaram. Səninçün sandıqtulası deyiləm, bunu bil! Amma əvvəlcə daxılımız haqqında məni məlumatlandır. Mən on pfenniq atmışdım, bəs sən nə qədər atmısan?

- Sən əgər onlara görə narahatsansa, elə bu gün pulunu geri götürə bilərsən. Bircə gözlərimin önündə bitmə! Çox lazımdı mənə elə sənin sədəqən?!

- Məmnuniyyətlə qəbul edərəm, - lağla söylədi. Amma barışıq üçün yenə də əl yeri qoydu.

Mən isə çox hirsləndim. Veber mənə yol göstərə bilməzdi! Onun qarşısında vicdanım təmiz idi! Mənəsə qarşısında başımı dik tuta biləcəyim biri lazım idi. İçimdə qaynayan mundarlıqlar bir nəfəsə fışqırdı. "Bəy balası" simasını aldım. Amma adətən elə şeylərdən həmişə uzaq olardım. Göstərdim ki, bir küçə uşağıyla dostluğu pozmaq mənimçün çox da böyük itki deyil. Ona dedim ki, bir də bizim bağçadan meyvə yeməsin, oyuncaqlarımla oynamasın. Mən özündən çıxdığımı və artıq coşduğumu hiss etdim. Artıq rəqibim var, kimsə günahkardır, kiminsə qolundan yapışmaq olar. Bütün hirsim bu xilasedici, arzu olunan qəzəbə töküldü. İçimdə deyil, qarşımda duran bir düşmən olduğuna əvvəlcə mənə qorxu ilə, sonra isə əsəbi gözlərlə baxan, səsini eşitdiyim, tənəsinə tüpürə biləcəyim, müdafiəsinə daha qətiyyətlə müdafiə ilə cavab verə biləcəyim düşmənimin olduğuna görə xoşbəxt idim.

Biz söylənə-söylənə qaranlıq küçə ilə üzü aşağı düşürdük. Bəzən evlərin girişlərindən adamlar arxamızca boylanırdılar. Və mənim özümə qarşı olan bütün qəzəbim, hiddətim yazıq Vebere yönəlmişdi. O, gimnastika müəllimnə məni satacağını deyib hədələyəndə zövq aldım. Səhv etdi. Özünü əclaf kimi aparmağa başladı və bu məni güclü etdi.

Myasnikov küçəsinin yaxınlığında biz əlbəyaxa olduq. Yanımızdan ötənlər bizə baxmağa başladılar. Çəkmələrimizi bir-birinə dirəyib zərbələr endirirdik. Bir anlıq hər şey unuduldu, mən haqlı idim, günahkar deyildim. Müqavimət göstərirdim. Veber daha güclü olsa da, mən ondan ağıllı və ürəkli idim. Biz dalaşırdıq. O əlacsızlıqdan köynəyimin yaxasını cıranda qaynar bədənimdən keçən soyuq hava axınını hiss etdim.

Və davamızı, boğuşmağımızı dayandırmadan təhqirə keçir, get-gedə daha axmaq və pis, qəribə, qeyr-adi sözlərlə bir-birimizi söyüb-yamanlayırdıq. Söyüş söyməkdə də mən onu üstələyirdim. Mən daha qəzəbli və daha fərasətli idim. Əgər o "it" söyləsə, mən "qancıq" deyirdim, əgər o "alçaq" deyirdisə, mən "iblis" deyirdim. Hiss etməsək də bizdən qan axırdı. Bir-birimizi lənətləyir, edam edilməyi arzulayırdıq, əlimizdə bıçaq olmadığına heyifslənirdik. Yoxsa qabırğalarımızı deşik-deşik edərdik.

**Ardı var**

***Rus dilindən tərcümə edən Xanım Aydın***